538:1.QXD 18.07.2023 1:20 Page 1

KÜRD DÎPLOMAT

xalqı mübariz və qəhrəman xalqdır
Heydər Əliyev

№ 26 (538) 09 - 15 İyul, Tîrmeh sal. il 2023
Ji meha şûbatê sala 2003-a tê weşandin

Həftəlik İctimai-siyasi qəzet
Rojnama heftename civakî û sîyasî

Qiymәti: / Hêjaye: 40 qəpik

Bilirsən, nə etmiş kürdlər bir zaman?
Qurtarmış İslamı çox ağır dardan!
Qədim Avropanın xaçpərəstləri,
Yüz illər sındırmış göy məscidləri.
Müsəlman keçmişin öyrənsə əgər,
Kürdün dərgahına daim baş əyər.

Səbahəddin Eloğlu


Səh. 2

## Serokê Herêma Kurdistanê serdana Azerbaycanê dike


Səh. 7

## Tarixi adları təhrif etmək olmaz!


Səh. 20

## Naveroka Civîna Komîteya Navendî ya PDKê bi serperiştiya Serok Barzanî hat aşkerekirin


Səh. 15

### Nêçîrvan Barzanî sala nû ya Sabîeyê Mendayî pîroz kir


Səh. 11

### Mesrur Barzani: Daha güçlü bir Kürdistan için destekleyen herkese teşekkür ediyorum


Səh. 18

### Dîndar Zêbarî: Li Herêma Kurdistanê ti kes ji ber baweriyên xwe yên siyasî nehatiye girtin


Səh. 15

### Fuad Hüseyin: 'Kürdistan Bölgesi'ne yönelik esas tehdit içerden kaynaklanıyor'

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Mərkəzi Nəbatat Bağında aparılan işlərlə tanış olublar Səh. 2

## Əbdülrəhman Qasımlını kim öldürdü Səh. 5

## KÜRD OLMAQ QƏBAHƏTDIRMI? Səh. 3

## MAHMUD BƏY SƏFİKÜRDSKİ Səh. 6

## QAFQAZDA ŞƏDDADİ KÜRD DÖVLƏTİ Səh. 4

## TÜL EL-AMARNA ARŞİVLERİNDE 3300 YILLIK KÜRTCE BİR MEKTUB Səh. 8


Səh. 18

### Divê pirsa Kurd li ser bingehê edaletê bê çareserkirin


Səh. 22

### ДПК: встреча с ПСК по выборам была "позитивной"


Səh. 19

### Mistefa Cuma: Me dixwest PDK-S bê parastin û neyê parçekirin


Səh. 12

### Avukatlar Lozan'da ihlal edilen Kürt hakları için Danıştay'a başvurdu

538:1.QXD 18.07.2023 1:20 Page 2



# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Mərkəzi Nəbatat Bağında aparılan işlərlə tanış olublar



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iyulun 12-də Bakıda Mərkəzi Nəbatat Bağının ərazisində aparılan abadlıq, yenidənqurma və tikinti işlərinin gedişi ilə tanış olublar.

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov dövlətimizin başçısına və birinci xanıma Mərkəzi Nəbatat Bağında həyata keçirilən yenidənqurma və tikinti işləri barədə məlumat verdi.

Bildirildi ki, yenidənqurma və bərpa işləri nəticəsində Mərkəzi Nəbatat Bağının ərazisi 39 hektardan 44,8 hektara çatdırılıb. Vaxtilə ərazidə yerləşən avtomobil təmiri boksları, bir neçə ictimai-iaşə obyekti və müxtəlif təyinatlı qanunsuz tikililər sökülüb. Hazırda bağın ərazisində yeni, müasir layihəyə əsasən geniş bərpa və yenidənqurma işləri müvəffəqiyyətlə davam edir. Layihəyə əsasən bağda müxtəlif növ yeni ağacların əkilməsi, müasir dizaynlı guşələrin yaradılması nəzərdə tutulur.

Qeyd edək ki, Mərkəzi Nəbatat Bağında aparılan yenidənqurma işləri Azərbaycan Prezidentinin müvafiq sərəncamlarına uyğun olaraq həyata keçirilir.

Azərbaycan florasında mövcud olan bitki növlərinin və genofondunun qorunması məqsədilə 1934-cü ildə yaradılan bu bağ elmi-tədqiqat müəssisəsi kimi fəaliyyət göstərib. Nəbatat Bağında 2500-dən çox ağac, kol, ot bitkiləri və sair var. Bağda 130-a yaxın nadir bitki növü qorunur. Ötən il Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq Qərarı ilə “Mərkəzi Nəbatat Bağı” publik hüquqi şəxs Bakı Şəhər İcra Hakimiyyətinin tabeliyinə verilib.

Mərkəzi Nəbatat Bağında görülən işlərlə yaxından tanış olan Prezident İlham Əliyev müvafiq tapşırıq və tövsiyələrini verdi.

Xatırladaq ki, son illər Azərbaycanın bütün regionlarında, o cümlədən Bakı şəhərində abadlıq və yenidənqurma işləri geniş vüsət alıb. Əhalinin rahatlığının və istirahətinin yüksək səviyyədə təşkili məqsədilə yeni parklar və çoxsaylı yaşıllıq zolaqları salınır, mövcud park və xiyabanlar isə əsaslı şəkildə yenidən qurulur. Həyata keçirilən bu layihələr Bakının və regionların simasını dəyişməklə yanaşı, ölkəmizdə ekoloji vəziyyətin yaxşılaşdırılmasında da mühüm rol oynayır. Aparılan yaşıllaşdırma işlərinə və ekoloji vəziyyətin yaxşılaşdırılması üçün dövlət səviyyəsində həyata keçirilən layihələrə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da böyük dəstək verir.

# Brüsseldə Prezident İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti və Ermənistanın baş naziri ilə üçtərəfli görüşü olub



İyulun 15-də Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə üçtərəfli görüşü olub.

Söhbət zamanı Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılması, sülh prosesi üzrə danışıqların davam etdirilməsi, sərhədlərin delimitasiyası, nəqliyyat kommunikasiyalarının açılması, Ermənistanın hərbi birləşmələrinin Azərbaycan ərazilərindən çıxarılması və qanunsuz hərbi birləşmələrin tərksilah edilməsi ilə bağlı fikir mübadiləsi aparılıb.

Brüsseldə keçirilən bu danışıqlar Vaşinqton görüşünün davamı kimi qiymətləndirilib.

# Serokê Herêma Kurdistanê serdana Azerbaycanê dike



Serokê Herêma Kurdistanê Nêçîrvan Barzanî serdana Bakuyê dike û biryar e sibe sêşemê ligel Serokê Azerbaycanê bicive.

Roja Duşemê 17ê Tîrmeha 2023an, malpera Serokatiya Herêma Kurdistanê ragihand, Serokê Herêma Kurdistanê Nêçîrvan Barzanî bi serdaneke fermî diçe Azerbaycanê û sibe sêşemê 18ê Tîrmeha 2023an, li Bakuyê dê ligel Serokê Azerbaycanê Îlham Aliyev bicive.

Li gor daxuyaniya Serokatiya Herêma Kurdistanê, Serokê Herêma Kurdistanê Nêçîrvan Barzanî û Serokê Azerbaycanê Îlham Aliyev dê pêwendiyên Azerbaycanê yên ligel Iraq û Herêma Kurdistanê û pêşvebirina hevkariya hevbeş di warên cuda cuda de gotûbêj bikin.

# KÜRDÜSTAN PREZİDENTİ SABAH BAKIYA GƏLİR

Kürdüstan Regional Rəhbərliyinin prezidenti Neçirvan Bərzani 18 iyul 2023-cü ildə Bakıda rəsmi səfərdə olacaq. Ölkə rəhbərləri Bakıda keçiriləcək görüşdə Kürdüstan və Azərbaycan arasında müxtəlif sahələrdə birgə əməkdaşlığın inkişafı barədə müzakirə aparacaqlar. Bu görüş Əliyevlə Bərzaninin cari ildə sayca üçüncü görüşüdür.

# Neçirvan Barzani resmi ziyaret için Azerbaycan'a gidiyor

Başkan Neçirvan Barzani resmi ziyaret kapsamında yarın Azerbaycan’ı ziyaret ederek Cumhurbaşkanı Ailyev ile görüşecek.

Kürdistan Bölgesi Başkanlığı’ndan yapılan açıklamaya göre, Başkan Neçirvan Barzani’nin yarın Azerbaycan'a resmi bir ziyaret gerçekleştirecek. Bakü'de Cumhurbaşkanı İlham Aliyev ile bir araya gelecek olan iki lider Azerbaycan ile Irak ve Kürdistan Bölgesi ilişkilerini ele alacak. Liderler ayrıca çeşitli alanlarda karşılıklı işbirliğinin geliştirilmesini görüşecek.

Başkan Neçirvan Barzani ile İlham Aliyev, 18 Şubat’ta Münih Güvenlik Konferansı’nın 2’nci gününde bir görüşme gerçekleştirmişti.

Görüşmede Barzani’yi Azerbaycan’a davet eden Aliyev, Erbil’de konsolosluk açmak için çalışmalar yürüttüklerini söylemişti.

Liderler, Kürdistan Bölgesi ile Azerbaycan Cumhuriyeti arasındaki ilişkilerin genişletilmesi konusunda karşılıklı arzularını dile getirmişti.

Barzani ile Aliyev, 4 Haziran’da Türkiye Cumhurbaşkanı Recep Tayyip Erdoğan'ın 18 Mayıs’taki seçimlerin ardından Ankara’da liderlere verdiği yemekte de bir araya gelmişti.

***Nerina Azad***

538:1.QXD 18.07.2023 1:20 Page 3



# KÜRD OLMAQ QƏBAHƏTDIRMI?

***...Bu mövzuya müraciət etmək, düşündüklərini söyləmək, bildiklərini yazmaq çətinki hamı tərəfindən obyektiv, tərəfsiz və emosiyasız qəbul edilsin...Amma həqiqəti olduğu kimi deməmək də günahdır. 1992-ci ilin may ayında milli qüvvələr tərəfindən qurulan Azərbaycan Respublikası dövründən bu günə kimi "kürd" məhfumu ətrafında çoxlu müəmmalı spekulyativ proseslər yaradılmışdır. Zamanın tələblərindən doğan şərtlərə uyğun olaraq bəzi milli qüvvələr arasında türkə, türkçülüyə nə qədər çox sədaqət, bağlılıq, sevgi göstərilmişsə, paralel olaraq kürdə kürdçülüyə o qədər sayğısızlıq nümayiş etdirilmişdir.***

"Türkün türkdən başqa dostu yoxdur". Atatürk deyiminin zamanına, mənasına, məqsədinə, diqqət yetirilmədən əhaliyə türk, qeyri- türk bölümü ilə yanaşılmışdır.

İraqda, İranda, xüsusilə, Türkiyədəki kürd ayaqlanmaları birbaşa Azərbaycan üçün təhlükə hesab edilmiş, terrorla milli azadlıq hərəkatı, PKK ilə kürd xalqı arasında bərabərlik işarəsi qoyulmuşdur.

Azərbaycan oxucusuna qonşu dövlətlərdəki kürd problemlərini düzgünlüklə izah etmək əvəzinə "Azərbaycanda PKK", "Kürdlər Azərbaycanda yerləşdirilir", "Hakimiyyət kürdləşdirilir" kimi absurd mövzular ətrafında qaranlıq atmosfer yaradılmışdır.

Mən yaşda olan həmyerlilərimin yəqinki hamısının yadında olar. Biz arana enən kimi Ağdamdan başlayaraq hamı bizim tərəfin adamlarına kürd deyirdilər. Bəzən heç adımızla çağırılmaz, "ay kürd" deyə müraciət olunardı. Amma bundan heç kəs inciməzdi. Biz öz daxilimizdə kimin kürd, kiminsə azərbaycanlı-türk olduğunu bilirdik. Kürd adı altında tanınmağımız, qəbul edilməyimiz bizi incitmirdi. Əksinə, qürur duyur, daxilən sevinir, bir az da qürrələnirdik. Səbəbi zaman keçdikcə mənə daha yaxşı aydın olurdu.

Dağlarda yaşayışın təbii axarının yaratdığı doğruluq, dürüstlük, cəsarət, igidlik, saflıq, hər cür riyakarlıqdan uzaqlıq, biclik bilməmək kimi insani keyfiyyətlər əhatəsindəki bu toplum



paralel olaraq Azərbaycanlı və kürd adlarını eyni məhəbbətlə üzərinə götürürdü.

Bəzən paytaxtda biz Laçından, Qubadlıdan, bəzən isə Kəlbəcərdən olanlara növbəti dəfə "ay kürd" müraciətindən sonra, cavab "mən azərbaycanlıyam" olanda, həmkarımız "Yaxşı, yaxşı, adınızı niyə danırsınız?" kimi nadan sullarla belə deyiləndə bu səmimi inadın uzantısı olaraq kürd adı altında yaşamağın heç kəsə başıaşağılıq gətirmədiyini, əksinə, kürdün tarixi, milliliyindən irəli gələn fəxarətlərə bürünür, onu türklüyün fəxarəti qədər doğma bilərək Azərbaycanlı - kürd olaraq birlik, bərabərlik, qardaşlıq dünyasında xoşbəxt ömür sürürdük.

Kürd adı ilə üzvi bağlı keyfiyyətlərin, türkün yaranışından onunla birlikdə doğulan özəlliklərin yoğuruşundan yaranan həyat tərzi ilə 1992-ci ilə qədər bu reallıq cəmiyyətimizdən, ancaq müsbət yönümdə qidalanırdı.

Milli qüvvələrin bəzi radikal qanadı Milli siyasəti yersiz olaraq tamamən alt-üst edib, lüzumsuz, quru mövcud durumla uyuşmayan türkçülük şüarlarına söykənərək ayrı-ayrı etnik qrupları, azsaylı xalqları- özünüdərkə, özünəqayıdışa tərəf itələdi...Ağa axtarışına çıxan etnik dərəbəyləri Rusiyada, İranda, Türkiyədə söykənəcək yeri taparaq, təbii instinklə "mən talışam", "mən avaram", "mən ləzgiyəm" səslərini ucaltdılar.

Əslində, onlar öz kimliklərini onsuz da danmırdılar. Buna yuxarıların da cəhdi olmurdu. Sadəcə olaraq əllərinə girəvə verilmişdi. Yeni ağalarının isti qucaqlarında oturub, Azərbaycana, türklüyə, xalqlarımız arasında həqiqi dostluğa və qar-



daşlığa düşməncəsinə yanaşan, qulaqlarını azana yox, kilsə zənglərinə daha yaxın tutan bəzi vətəndaşlarımız xəyanət yolundadırlar. Bu xəyanətlər milli kimlik şüarları ilə belə ört-basdır edilə bilməz. Təəssüf ki, xalqımıza həqarətli adlar qoyan, tariximizi, milliyimizi şübhələr altına salan xaricdəki bəzi radikal talış, avar, ləzgi millətçilərinin fəaliyyətlərinə çox ciddi fikir verilmədiyi halda, içimizdə kürd adı gələndə bir çoxları qələmlərini at kimi minib çapırlar.

İş o yerə çatıb ki, Azərbaycandakı ABŞ səfirinin həyat yoldaşına "Siz kürdsünüzmü?" sualı belə verilib. Rəzillikdir...

Tutaq ki, Zeyno Baran kürddür. Axı Qüdsü, müqəddəs torpaqları xaçlı ordularından azad edən sərkərdə Səlahəddin Əyyubi, Atatürkün yaxın dostu, Turançılıq ideyasının banisi Ziya Göyalp, erməniləri diz çökdürən, Naxçıvanı işğaldan azad edən əfsanəvi komandan Kazım Qara Bəkir Paşa, Azərbaycanı doğma anasından çox sevən böyük Ziyalı, Kəlbəcərli Şamil Əsgərov, düşmənlərlə döyüşdə həlak olan Milli Qəhrəmanımız Laçınlı Kamil Nəsibov, müharibədə onlarla düşməni məhv edən sıravi polis, indi də çörəyini çobançılıqla qazanan Mais Xanlarov da kürddürlər...

Dünyada qırx milyona yaxın kürd yaşayır. Əksəriyyəti də kompakt olaraq Suriya, İraq, Türkiyə, İran ərazilərində. Qardaş Türkiyədə iki il bundan öncəyə qədər konstitusiya səviyyəsində on milyondan çox kürd vətəndaşının milli kimlikləri, dilləri, mədəniyyətləri belə danılırdı.

İndiki Türk hökuməti bu haqsızlığı, ədalətsizliyi aradan qaldırmaq üçün qəti addımlar atmaqdadır. Türkiyədəki bəzi dairələrə, siyasi partiyalardakı qatı millətçilərə xoş görünmək, Azərbaycanın dövlət strukturlarında çalışan kürd əsilli məmurları top atəşinə tutmaqla siyasi divident qazanmağın vaxtı çoxdan keçib...Elə zamana uyğun olaraq türkü kürd, kürdü türk kimi təqdim edən siyasi xamelyonçuların manevrlərinə də ehtiyac qalmayıb...

...Dağlıq Qarabağda ordan-burdan yığılan 135 min erməni ayrıca dövlətini qurmaq istəyir. Bir çox böyükbaşlılar dillənməsələr də başlarını dala-qabağa yelləndirlər. Kürd xalqının dövlət qurmaq istəyinə isə istehza ilə yanaşılır, ağız büzülür.

Ərəblərin eyni coğrafi məkanda iyirmidən çox dövlətləri vardır. Türkiyə ərazisindən torpaq qoparmaq, başqa Kürd ərazilərinə birləşdirməklə məqsədə nail olmağın mümkünsüzlüyünü kürdlər dərk edirlər. Onlar adi insani haqlara qovuşmaqla Osmançılıq ideyasının bəzi istiqamətlərini bu gün üçün daha məqbul hesab edirlər.

Kürdlərə nifrət istiqamətləndirməklə türkləri də hökmətdən salan bəzi ifrat millətçilərimizə xitabən deyirəm: Mən fərd olaraq özümü soy-kök və əqidə baxımından dönməz türk millətçisi bilirəm. Yaşayışım, davranışım, mübarizəm də bu əsasa köklənib. Türk-kürd birgə yaşayışının, ümumi düşmən qazanmalarının yüz illər müddətində xronoloji ardıcıllığını ortaya qoyan tarixi qaynaqlardan onilliklər boyu yararlanmışam. Kürddən bizə zərər dəyməz! Ətrafa boylanın!

"Azərbaycanlıyam" deməyi xəcalət hesab edənlərə, ərazimizi parçalamağa çalışanlara, bizə qarşı terror hazırlayanlara, ermənilərə təzə eşq elanı edib, eyni kökdən olmaları ilə fəxr edənlərə, türksoyluları gəlmə etnos kimi qələmə verənlərə, Midiyanı, Atropatenanı, Şah İsmayılı, Babəki belə özəlləşdirmək istəyənlərə diqqət verin!

Eyni zamanda aborigen, çoxsaylı xalq olaraq özümüzün də xətalarını unutmayın. Yükün sicimini bərk çəkəndə ağırlıq belində olan inciyir, ip boş olanda isə yük əyilir..."Yük əyməsə, daş qəribliyə düşməz." Qəriblikdəki daşlarımızın hansı divarlara hörülməsinə isə biganə qalmaq olmaz.

İndi kürdləri Azərbaycanın sərvətlərinin sahibi hesab edənlər - Ağcabədi rayonunda "Taxta körpü" ərazisində məskunlaşmış kürd əsilli vətəndaşlarımızı görməyə getsələr yaxşıdır. Bir də özünüzdə öyrənməklə, ətrafdakılara da başa salın ki, müsəlman kürdlərlə yezidi kürdlərin türklüyə münasibətlərində yerlə-göy qədər fərq var.

Osmanlı ərazilərində Birinci Dünya müharibəsi vaxtı, Qarabağ döyüşlərində yezidi kürdlər ermənilərlə birgə olub, həmişə onlara kömək ediblər. Onlar tərəfdən döyüşüblər...Bu onların islami dəyərlərdən uzaq, şeytan istinadlı dinlərindən qaynaqlanır.

Laçında döyüşlər gedən vaxtı qonşumuzda on iki yaşında Anar adlı bir oğlan mənə dedi:

- Allah məni erməni yaratsaydı, özümü öldürərdim...

O andan sonra mənə çatdı ki, niyə laçınlılar "Qardaş olub Hayastan-Azərbaycan" mahnısını eşidən kimi radionu söndürürmüşlər.

Niyə Soltan bəyin vaxtında ermənilər Laçın torpağına ayaq basa bilmədilər? "Həmən Kürdəm" havası dillənəndə isə Azərbaycan türkü də, Azərbaycan kürdü də qol açıb qoşa oynayır.

Qərib qəbristanlıqlarda dəfn olunan, baş daşları üzərində at üstündə şəkilləri həkk olunmuş Laçınlı kişilərin yönləri Laçına sarıdır.

Vətənə dönənə qədər qiblə bildiymiz yurdumuza sarı...

**(www.tezadlar.az)**

***Akif Səlimov,***
***İstefada olan polis polkovniki***

# AZƏRBAYCAN TARİXİNDƏN SƏHİFƏLƏR

# QAFQAZDA ŞƏDDADİ KÜRD DÖVLƏTİ

Azərbaycan tarixən çox millətli ölkə kimi tanınmışdır. Əlverişli coğrafi mövqeyə malik olan Azərbaycanda müxtəlif etnik mənşəyə malik olan xalqlar əsrlər boyu birlikdə yaşayaraq müasir Azərbaycan xalqının formalaşmasında yaxından iştirak etmişlər Antik Yunan Roma müəllifləri-Miletli Hekatey, Lampsaklı Xaron, Lidiyalı Ksanf, Herodot, Knidli Ktesi, Ksenofont, Strabon, Tit Livi və s. Azərbaycanda yaşayan müxtəlif tayfalardan bəhs etmişlər. Məşhur yunan coğrafiyaçısı Strabon (e. ə. 63-b. e. 23-cü illər) Albaniyada (müasir Azərbaycan Respublikası) yaşayan 26 tayfanın adın çəkir. Pəhləvi, erməni, ərəb, fars, Suriya mənbələri Azərbaycanda yaşayan müxtəlif dillərdə danışan xalqlar barədə məlumat verir. Ərəb müəllifi İbn Hövqəl Qabh(Qafqaz) dağlarında 360 dildə danışıldığın göstərir. Digər məşhur ərəb səyyah-coğrafiyaşünası və tarixçisi əl-Məsudinin yazdığına görə Qafqazda hər birinin öz hökmdarı və başqalarının anlamadığı dili olan 72 xalq yaşayır.

İrandilli xalq olan kürdlər Azərbaycanın aborigen sakinləri olub qədim dövrlərdən müasir Azərbaycan və Ermənistan ərazilərində yaşamışlar. Mənbələrdə kürdlər müxtəlif adlarla yad edilmişdir. Məsələn, erməni mənbələrində kürdlər daha çox marlar(midiyalılar) adlanır. Sasanilərin hakimiyyəti dövründə (III-VII əsrlər) kürdlər regionun əsas etnik ünsürlərindən biriydi. Təsadüfi deyil ki, ərəb mənbələri Şirvan və həttda Dərbənddə də kürd məskənlərinin olmasından bəhs edirlər. Ərəb işğalı prosesində ərəblərlə azərbaycanlılar arasında bağlanan müqavilədə Balasakan və Savalan kürdlərinin adlarının çəkilməsi kürdlərin yadellilərə qarşı mübarizəsini və əsas etnik qüvvələrdən biri olmasını göstərir. Təsadüfi deyil ki, Ərəb xilafətinin parçalanması nəticəsində yaranan feodal dövlətlərinin əksəriyyətində hakim sülalələr kürd mənşəli tayfalar olmuşlar. Hətta türk mənşəli Sacilər dövlətinin (889-941-ci illər) sonuncu hokümdarı Deysəm ibn İbrahim ibn Şadluyə mənşəcə kürd olmuşdur. Belə tanınmış kürd sülalələrindən biri dəAzərbaycanın və bir sıra qonşu ölkələrin hərbi siyasi tarixində fəal rol oynamış Şəddadilər sülaləsidir. Bu sülalə X əsrin ortalarından XII əsrin sonunadək Cənubi Qafqazın Gəncə, Arran-Naxçıvan, Dvin və Ani əmirliklərində hakimiyyət başında olmuşlar. Görkəmli Azərbaycan tarixçisi, t. e. d. professor M. X. Şərifli 1978-ci ildə nəşr olunmuş "IX əsrin ikinci yarısı- XI əsrlərdə Azərbaycan feodal dövlətləri " monoqrafiyasında Şəddadilər dövləti haqqında qiymətli məlumatlar verir. Üstündən xeyli vaxt keçməsinə baxmayaraq ilkin mənbələr əsasında yazılmış bu əsər öz əhəmiyyətini ini də saxlayıb. Bu sayımızdan başlayaraq bu əsərin Şəddadilər dövlətindən bəhs edən hissəsini bəzi dəyişiklik və əlavələrlə diqqətinizə çatdıracağıq.

Gəcə Şəddadilər dövləti X əsrin II yarısında əmələ gəlmişdir. Bu dövlətin ərazisi əsas etibarilə şimalda Kür çayı, cənubda Araz çayı, şərqdə Beyləqan nahiyəsi, qərbdə Xunan qalasına(Al-İstakhri. Kitab Masalik al-Mamalik, ed. de Goeje, BGA, t. I Lugd. Batav, 1870, səh. 193) qədər uzanan Arran torpaqlarını əhatə etmişdir. Məlum olduğu kimi , Arran vilayətinin ərazisi ayrı-ayrı dövrlərdə öz sərhədlərini dəyişmişdir. İstəxri Arran vilayətindən bəhs edərkən göstərir ki, Arranın sərhədi Dərbənddən Tiflisə və Araz çayı yaxınlığında Naxçıvan adlanan yerə qədər çatır(Yenə orada, səh. 190). İbn Hövqəl Bərdə haqqında bəhs etdiyi zaman onu Ümmür-Ran , yəni Arranın anası hesab edir. (İbn Haukal. Liber imaginis terrae. ed. J. H. Kramers. Lugd. Batav 1939, səh. 337)o göstərir ki, Arranda Bərdə, əl-Bab(Dərbənd) və Tiflisdən böyük şəhər yoxdur. Beyləqan, Varsan, Bərdic, Bərzənc, Şamaxiya, Şirvan, Laican, Şabran, Qəbələ, Şəki, Cənzə(Gəncə), Şəmkür vəXunan isə kiçik vilayətlərdir;şəhərləri gözəl, eyni böyüklükdə və məhsuldardır, yararlı təsərrüfat sahələrinə malikdir. (Yenə orada, səh. 342). Müqəddəsi "Əhsən ət –təkasim fi-mərifət əl-əkalim" əsərində yazır ki, Arrana gəldikdə o dəniz ilə Araz çayı arasında yarımada şəklində olub bütün vilayətin təqribən üçdə birini təşkil edir. Məlik çayı vilayəti ortadan bölür, onun paytaxtı Bərdədir. (Descriptio imperii moslemici auctore, ed. M. J. de Goeje, Lugd. Batav, BGA, t. III, 1872. Səh. 373)




Arran ölkəsi və buradakı şəhərlər haqqında Yaqut Həməvi belə yazır:"Arran ərəb adı deyildir , bu geniş ölkədir və çoxlu şəhərləri vardır. Xalq dilində Gəncə deyilən Cənzə, Bərdə, Şəmkür və Beyləqan onun şəhərlərindəndir".

Münəccimbaşının "Cami əddüvəl" əsərinin "Şəddadilər " fəslindən göründüyü kimi, çox məşhur olan Arran ölkəsi qərbdən. cənubdan və şərqdən Azərbaycanla. şimaldan isə Qafqaz dağları ilə həmsərhəddir. Naxçıvan, Gəncə, Dərbənd, Beyləqan, Şəmkür, Tiflis, hətta Şirvan da Arran şəhərlərindən sayılmışdır. (V. Minorski. Studies in Caucasian history, London, 1953. (Bundan sonra V. Minorski. Şəddadilər), səh. 6-8, 188)

Kəsrəvi Təbrizi arranlıları İran dillərinin birində danışan iranlıların bir qismi kimi göstərməyə çalışaraq onları VI əsrin axırlarında buraya köçüb gəlmiş Mehranilərlə əlaqələndirmişdir. (Kəsrəvi Təbrizi. Şəhriyarani –romnan, II cild, Tehran 1928, səh. 3). Şəddadilərin hakimiyyəti dövründə Arranın ən görkəmli şəhəri Gəncə idi. Onların hakimiyyəti Gəncədə təşəkkül etmiş və beləliklə Gəncə şəhəri Şəddadilər dövlətinin paytaxtı olmuşdu.

Şəddadilər ilk dəfə Dəbil (Dvin) ətrafında yaşamış 340 (951)-ci ildən Şəddadi Məhəmməd Dəbildə rəsmi olaraq hakimiyyət başına keçmişdir. Onun övladları isə 356 (966/7)-cı ildən sonra Gəncəyə gəlmişlər. 360 (970/1)-cı ildən burada hakimiyyəti ələ alaraq Azərbaycanda yeni bir feodal dövləti yaratmağa müvəffəq olurlar. (Səhayif əl -əxbar, səh. 507). Şəddadilərin ilk dövlət başçısı Dəbildə hakimiyyəti öz əlinə alan Məhəmməd ibn Şəddadın fəaliyyəti haqqında bəzi məlumat verməyi faydalı hesab edirik. Qeyd etmək lazımdır ki, Dəbildə müvəqqəti də olsa hakimiyyəti öz əlinə alan Məhəmməd ibn Şəddadın mənşə etibariylə kürd olduğunu istifadə etdiyimiz bütün ilk mənbələr təsdiq edir. Münəccimbaşı "Cami əddüvəl" əsərinin "Şəddadilər" fəslinin ilk sətirlərinə başladığı zaman onların kürd olduğunu təsdiq edir(Münəccimbaşı. Şəddadilər fəsli, səh. 1). İbn əl-Əsir Şəddadi Fəzlunun xəzərlər üzərinə hücum etməsiylə əlaqədar onu "Fəzlun əl-Kürdi" adlandırır(İbn əl-Əsir. Tarix əl-Kamil, VII-XI. Misir, hicri 1290. səh. 171). Yeri gəlmişkən qeyd edək ki, İbn əl-Əsir Vəhsudan və Məmlanın mənsub olduğu rəvvadilər tayfasının da kürd olduğunu göstərir. Kəsrəvi Təbrizi bu fikrin düzgün olmadığını qeyd edərək şəddadilərlə rəvvadilərin qohum olmadığını, şəddadilərin yerli olduğunu, lakin rəvvadilərin mənşə etibariylə ərəb olduğunu göstərir (Kəsrəvi Təbrizi. Gösrərilən əsəri III cild, səh. 7). Bunu da qeyd etmək lazımdır ki, İbn Xəlliqan Dvin şəhəri ətrafındakı kürdləri rəvvadi adlandırır(İbn Xəlliqan. Kitabe vəfiyyatül əyan və ənbaüz zəman. Təbriz, hicri 1257). Kəsrəvi isə bu rəvvadilər sözünün təşdidsiz yazıldığını və kürd şəddadilərin bunlardan olduğunu göstərir( Kəsrəvi Təbrizi Göstərilən əsəri, səh. 7).

Gəncə Şəddadilər dövləti Salarilərin Azərbaycanda hakimiyyət sürdükləri dövrdə əmələ gəlmişdir. Münəccimbaşının məlumatına görə Azərbaycan Salarilər dövlətinin başçısı Mərzuban 337(948/9)-ci ildə Rey hakimi ilə müharibə zamanı əsir düşərək Səmirəm qalasında dörd ilə qədər. yəni 337-341 (948-953)-ci illərdə həbsdə saxlanılmışdı. Bu zaman Azərbaycan dövlətində qayda pozulmuş və hər bir vilayətdə feodal hakimlər baş qaldırmışdı(V. Minorski. Şəddadilər, səh3). Hətta Mərzubanın övladları onun həbs etdiyi sabiq Azərbaycan hakimi Deysəm ibn İbrahimi (Sacilər dövlətinin sonuncu hökmdarı(932-941) Deysəm ibn İbrahim ibn Şadluyə əl Kürdi-N. H. ) həbsdən azad etmişdilər. Deysəm Azərbaycanda gəzərək özünə tərəfdarlar axtarırdı. Bu zaman müstəqil olmağa çalışan feodallardan biri də Məhəmməd ibn Şəddad ibn Qurtaq idi (Yenə orada. ). Məhəmməd ibn Şəddad fürsətdən istifadə edərək Salarilər dövlətinə tabe olan Dəbil şəhərini tutaraq hakimiyyətini möhkəmlətməyə başlamışdı. Məhəmməd Dəbil şəhərini və əhalisini düşmənin hücum və basqınlarından mühafizə etməyi öz öhtəsinə götürərək əhaliyə bir sıra bir sıra vədlərdə vermişdi. (Yenə orada) Erməni müəllifi Vardan (1271-ci ildə ölmüşdür) şəddadilərin mənşəyi və Gəncəyə gəlmələri haqqında çox qəribə bir məlumat verir. O yazır:"Həmin günlərdə Parisos nahiyəsinə (Dağlıq Qarabağ vilayətindədir) şanlı knyaz Qriqorinin (Magistros) yanına İrandan üç oğlu ilə bərabər Mam adlı bir qadın gəldi. Oğullar öz anasını knyaza girov verdi, Şotk və Şamiram (Vaspurakan vilayətində) qalalarını aldılar ". (Vardan. Vseobşaya istoriya, Moskva 1861, səh. 125). Vardan bununla 1044-cü il hadisələri ilə əlaqədar olaraq şəddadilərin Gəncəyə gəlməsi və Fəzlun haqqında bəzi məlumat vermişdir. Vardanın "Mam adlı bir qadın üç oğlu ilə İrandan Qriqor Magistrosun yanına Parisos nahiyəsinə gəldi"-deyə yazdığı bu qəribə məlumata başqa mənbələrdə təsadüf edilmir. Yuxarıda qeyd edildiyi kimi Şəddadi Məhəmməd öz oğulları ilə Dvin ətrafına gəlmişdi. Bunu da qeyd etmək lazımdır ki, o zaman Rəvvadi Məhəmmədin "Məmlan" adlandığı məlumdur. Lakin Vardan Məhəmməd adlı kişinin nə üçün "Mam" adlı qadınla qarışıq saldığı aydın deyildir. Bütün bunlarla bərabər Vardanın əsərində adların, tarix və sairənin səhv olmasına baxmayaraq onun şəddadilər haqqındakı yazılarında qiymətli tarixi məlunat vardır.





Məhəmmədin Dəbildəki hərəkətləri Azərbaycan hakimi Mərzubanın oğlu İbrahimə yetişdi. Mərzuban Səmirəmdə həbsdə olduğu zaman Azərbaycanı oğlu İbrahim idarə edirdi. Məhəmməd ibn Şəddadın Dəbili tutduğunu eşidərək İbrahim atasını vassalı Deyrmus (Veyzur) hakiminə məktub yazaraq Dəbili mühasirə edib Məhəmmədi oradan qovmasını tapşırdı. Deyrmus hakimi də qoşun toplayaraq Məhəmməd ibn Şəddadın üzərinə getdi. Məhəmməd isə əhalinin qüvvəsi ilə düşmənə şiddətli müqavimət göstərdi. Araz çayı sahilində baş verən vuruşmada Məhəmməd qələbə çaldı, Deyrmus hakiminin qoşunları qaçaraq yaxın meşələrdə gizləndilər. Bu hadisədən sonra Məhəmməd özünü və ailəsini müdafiə etmək üçün Təll həsli adlı qala tikdirdi. Məhəmmədin qələbə çalması xəbəri Ərdəbilə çatdıqda İbrahim Dəbilə hücum etmək üçün qoşun toplamağa başladı. O, kürd və deyləmlilərdən böyük bir ordu toplayaraq Məhəmmədin üstünə göndərdi. İbrahimin piyada və süvarilərdən ibarət olan qoşunları Dəbil darvazalarına çatdıqda Məhəmməd onları qarşıladı və birinci hücumlarını dəf etdi. Lakin bundan sonra döyüş dahada şiddətləndi. Dəbil əhalisi buna dözə bilmədiyi üçün Məhəmməddən aralandı. Döyüş meydanında yalnız öz adamları ilə qalan Məhəmməd ibn Şəddad da məcbur olaraq geri çəkilib öz qalasına sığındı və sonrada adamları ilə bərabər Ermənistana getdi. Bundan sonra Dəbil əhalisiMəhəmmədin yanına hörmətli şəxslər göndərərək qayıtmasını xahiş edərək, bir daha ona xəyanət etməyəcəklərini vəd etdilər. (V, Minorski. Şəddadilər, səh. 9). Başqa bir fikirə görə Məhəmməd Dəbil ətrafındakı döyüşdən sonra Ərzuruma getmişdi. Lakin V. Minorskinin rəyinə görə bu zaman Məhəmməd Vaspurakandan uzaq getməmişdir. O eyləmlilərin təzyiqi nəticəsində Araz çayını cənuba doğru keçərək Vaspurakana getmişdi. (Yenə orada, səh. 37). Məhəmməd dəbillilərin xahişini qəbul edərək Dəbilə qayıtmış və burada hakimiyyəti yenidən əlinə allmışdı.

**(ardı var)**

***Səhifəni hazırladı: Namiq Həsənov***

# Əbdülrəhman Qasımlını kim öldürdü



*Xosrov Həsən*

Doktor Əbdülrəhman Qasımlı, 1930-cu ildə İran Kürdüstanının Urmiya şəhərində dünyaya göz açmışdı. İbtidiai təhsilini Urmiyada, orta təhsilini Tehranda alan Qasımlı, 1948-ci ildə ali təhsil almaq üçün əvvəlcə Parisə gedir. Ancaq orada heç nə edə bilməyən Ə. Qasımlı Çexoslavakiyaya gedərək, Praqa universitetinin Bilim və İctimai-siyasi fakültəsinə qəbul olur. 1952-ci ildə universiteti müvəffəqiyyətlə bitirən Qasımlı vətəni Kürdüstana qayıdır. İran Kürdüstanının azadlığı uğrunda beş illik inqilabi mübarizəsini davam etdirdikdən sonra yenidən Çexoslavakiyaya qayıtmalı olur və 1962-ci ildə Praqa universitetində İqtisadiyyat elmləri üzrə elmlər doktoru adını alır. O, 1970-ci ilə qədər Praqa universitetində Sosializm və Kapitalizm iqtisadiyyatından tələbələrə mühazirələr oxuyur. Hər zaman olduğu kimi o, bu illərdə də Kürdüstanın azadlıq mübarizəsini davam etdirirdi.

Həmin dövrdə İranda baş verən ictimai-siyasi hadisələr, doktor Qasımlının Kürdüstana qayıtmasına səbəb olur. Ancaq sonradan İran Kürdüstanında baş verən ictimai-siyasi hadisələrin çox qarışması, Əbdülrəhman Qasımlını 1976-cı ildə Parisə qayıtmağa məcbur edir. O, Fransaya qayıtdıqdan sonra, Sorbon universitetində Kürd dili və ədəbiyyatı şöbəsində çalışmağa başlayır.

Şahın qaçışı və İran İslam inqilabının baş verməsi zamanı, yəni 1979-cu ildə yenidən Kürdüstana qayıtmalı olur və şəhid olan günə qədər Kürdüstan dağlarında köhnəpərəst İran rejiminə qarşı mübarizə aparır.

Doktor Qasımlı 1945-ci ildə siyasi mübarizəyə başlayır. Bir neçə ildən sonra onun rəhbərliyi altında Urmiyada Kürd Demokratik Gənclər Birliyinin təşkilatını yaradılır. 1970-ci ildə İnqilabi mübarizəni gücləndirmək məqsədilə, bir neçə dostları ilə yeni partiyanın nizamnaməsi və proqramını, strategiyasını və taktikasını hazırlayır və yeni partiya-İran Kürdüstan Demokratik Partiyası yaradır. Doktor Qasımlı 1973-cü ildə İKDP-nın III konqresində partiyanın katibi seçilir. Həmin gündən, şəhid olan günə qədər Qasımlı bütün qurultaylarda partiyanın Mərkəzi Komitəsinin katibi seçilib. Doktor Əbdülrəhman Qasımlı çıxışlarının birində belə deyirdi:

"- Azadlıq uğrunda mübarizə aparan xalq o azadlığın qiymətini də verməlidir. Heç bir millət zəhmətsiz, mübarizəsiz, fədakarsız, övladlarını qurban vermədən azadlığa çatmayıbdır. Kürd xalqı da tarixdən bilir ki, azadlıq fədakarlıq istəyir. Mübarizə aparan xalq, özünü müdafiə et-



məyi, bilməlidir. Bizim şəhidlərin karvanı uzundur. Bundan belə şəhid karvanlarımız daha da uzanacaq. Tarixdən biz də öyrənmişik ki, vətənpərvərlər özlərini şəhid edəndə şəhidlər üçün yas saxlamayaq, onları yad edərək, vətən uğrunda ölənlərimiz var deyə sevinək. Biz qərar vermişik ki, ancaq və ancaq onların yolunu davam edək ki, onların ruhu qarşısında utanmayaq. Mübarizlərimiz kimi inqilabi mübarizəni davam etdirin. Heç bir çətinlik və problemlərdən qorxmayın. Heç bir çətinliyə görə geri çəkilməyin. Bizim mübarizəmiz haqq yolunda, xalqımızın azadlığı uğrunda olan mübarizədir. Gələcək gün üçün aparılacaq mübarizə hər kəsin əməyi sayəsində olmalıdır. Biz çalışmalıyıq ki, bu mübarizədə itkilərimiz, şəhidlərimiz az olsun".

13 iyul 1989-cu ildə Kürd xalqının böyük oğlu, inqilabçı, İKDP-nın yaradıcısı və rəhbəri Doktor Əbdülrəhman Qasımlı və Mərkəzi Komitənin, eləcə də İKDP-ının xarici Əlaqələr şöbəsinin rəhbəri Abdulla Qadiri Vyanada kürd xalqının düşmənləri, İran İslam Respublikasının əks kəşfiyatı tərəfindən terrorcasına şəhid edildilər.

Şəhidlər xalqın şərəfidir, millət şəhidləri ilə ucalır,yüksəlir.Şəhid hər zaman xalqının şərəfli günlərini xatırladır. Əbdylrəhman Qasımlı və Abdulla Qadiri kürd xalqının qəlbində əbədi yaşayacaqlar.



**Validə Arzumanlı**

## Təsəlli verir

Baş-başa dayanan, o, məğrur dağlar,
Biri-birisinə təsəlli verir.
Köksümdə qübarlı, nisgilli dağlar.
Biri-birisinə təsəlli verir.

Güləyən üzüm yox, güldürən sözüm,
Xudayam bu hicrə bəs necə dözüm?
Kor olar el üçün ağlayan gözüm,
Biri-birisinə təsəlli verir.

Yadlar mənzilinə olmuşuq qonaq,
Validə zamana dustaqdır, dustaq.
Didərgin məzara, didərgin dayaq,
Biri-birisinə təsəlli verir.

# Doktor Ebdulrehman Qasimlo kê kuşt

- Dr.Ebdulrehman Qasimlo di sala 1930-an li Kurdistana Îranê,li bajarê Ûrmîyê dê dinê.Xwendina xwe ya destpêkî û navendî li Ûrmîyê û Têhranê bi dawî dîne,sala1948-an- ji bo xwendina bilind diçe Parîsê ji wuir jî diçe Çêxoslavakyayê û li Ûnîvêrsîtêya Pragê,beşa Zanîsta Civakî û Sîyasî dixwîne. Qasimlo sala 1954-an vedigere Kurdistanê û piştî pênc salên xebat û tekoşînê car din diçe Çêxoslavakîyayê. Di sala1962-an de li Ûnîvêrsîtêta Pragê li ser Aborîya sosîalîzm û aborîya kapîtalîzmê dersan dide. Her di vê salê de ji bo rêxistin û geşkirina xebata gellê kurd li Kurdistana Îranê,vedigere Kurdistanê.Dr.Ebdulrehman Qasimlo di navbera salên1976-a û 1978-an de li Parîsê, li Ûnîvêrsîtêta Sorbonê di beşa Ziman û Şaristanîya Kurdî de dixebite û di sala 1979-an de car din vedigere Kurdistanê û heta roja şehîdbuna xwe li cîyayê Kurdistanê,li dijî rêjîma kevneperest îslamî têdikoşe.Dr. Qasimlo di sala 1945-an de dest bi xebata sîyasî dike.Paş çend salan li Ûrmîyê bi serokatî û xebata wî Yekitîya Xortên Dêmokrat ên Kurdistanê dê damezirandinê. Di sals 1970-an de ji bo pêşxistina xebatê bi çend hevalên xwe ra proqram û destur û niqtên giringîyên stratêjî û taktîkên P.D.K.Î.-ê amade kirin.Dr Qasimlo di sala 1973-an,di III -îna Kongra P.D.K.I.-ê de ji bo sekreterîya partîyê dê hilbijartin.Ji wê salê heta ŞEHÎDBUNA xwe, Qasimlo di hemû kongirên partîyê de ji bo endametîya Komîta Navendî ya partîyê û paşê jî ji bo sekreterîya partîyê tê hilbijartin.

Dr.Ebdulrehman Qasimlo di hevpeyvîneke xwe de weha digot:" Gelê ku ji bo azadîyê bitêkoşe, divê bihayê wê azadîyê jî bike. Tu millet bê zehmetî û tekoşîn,bê fedekarî,bêyî qûrban kirina lawên xwe,negîhîştîye azadîyê.Gelê kurd jî ji mêje dizane ku azadî: fedakarî dixwaze,xweparastin dixwaze. Karwanên şehîdên me dirêje wî hin dirêjtir jî bibe. Lê me ji vêje biryara xwe daye ku em di rojên şehîd bûna şehîdên xwe de, di rojên bîranînên wan de,negirîn.Me biryar daye ku bi tedê û bi tenê riya wan bidomînin ku li pêş çav û bîrên wan şermezar nebin. Weke wan xebata xwe bidin serî. Jî çi nexwaşî û problêman netirsin, xwe ji çi zehmetîyan nedin paş.Xebata me,xebateke bi heq e; xebata azadîya milletekî ye. Xebateke ji bo paşeroja nifşên din.Eger nifşê me wezîfa xwe bi çakî,bicîh bîne,em ê piştrast bibin ku nifşên bên, wê bê şehîdbin."

*Xosrov Həsən*



**Rəfayıl Mayıl**

## Deyil

Min təbib tökülsə, loğman gəlsə də,
Əqidəsi çürük sağalan deyil.
Qurumuş səhraya suyu töksən də,
Dərya ola bilməz çağlayan deyil.

Min nəsihət versən zatı qırığa,
Ədəbdən, ərkandan çıxar qırağa.
Yarandan qan gəlsə, əgər sarığa,
Xəbiş onu görsə, bağlayan deyil.

Aqil olan dayaq durar elinə,
Uymaz bədzatların fitnə-felinə.
Yuvanı versələr, şərin selinə,
Haqdan tikilibsə, laxlayan deyil.

Rəfayılam, nəzər yetir əslinə,
Səs verəndə səs ver haqqın səsinə.
Bədcins övlad, töhmət olar nəslinə,
Ata, baba yolun saxlayan deyil.

538:1.QXD 18.07.2023 1:20 Page 6



# MAHMUD BƏY SƏFİKÜRDSKİ

Mahmud bəy Bala bəy oğlu Səfikürdski
Doğum tarixi 1898-ci il
Doğum yeri Səfikürd kəndi
Vəfatı 1977-ci il

**Həyatı**

Bala bəyin üçüncü oğlu Mahmud bəy 1898-ci ildə Səfikürd kəndində dünyaya boy göstərmişdi. 1909-cu ildə Gəncə gimnaziyasına daxil olmuşdu. Gimnaziyanı bitirmədən orduya çağrılmışdı. Rus qoşunlarının tərkibində rumın cəbhəsində döyüşlərdə iştirak etmişdi. Hərbi xidmətdən sonra Gəncəyə dönmüşdü. Gəncənin müsəlman-türk əhalisinin rusların himayəsi ilə ermənilər tərəfindən kütləvi şəkildə qırılmasının qarşısının alınmasında yeni yaradılmış «Yaşıl qvardiya» adlı özünmüdafiə dəstəsinin tərkibində çıxış etmişdi. «Yaşıl qvardiya» əsasən gənclərdən, tələbələrdən ibarət idi. Mahmud bəy Səfikürdskinin döyüş təcrübəsini nəzərə alaraq, onu qvardiyanının sədr müavini təyin etmişdilər. Gimnaziyanı 1919-cu ildə başa vurduqdan sonra bir müddət Gəncə Dairə məhkəməsində müstəntiqliyə namizəd kimi hüquq elminin incəliklərini öyrənməyə çalışmışdı. Elə həmin il o, Bakıda BDU-nin tibb fakültəsinə daxil olmuşdu. Ailə vəziyyəti və maliyyə çətinlikləri ilə əlaqədar olaraq işləmək fikrinə düşmüş və ƏMT-nın rəisi Nağı bəy Şeyxzamanlı Gəncə hadisələrindən Mahmud bəyi tanıyırdı. Və şübhəsiz ki, onun ƏMT rəisinin müavini kimi mürəkkəb və məsuliyyətli vəzifəyə təyin edilməsi həm də onların bir-birilərini yaxşı tanımalarından irəli gəlirdi. Arxiv materiallarından məlum olur ki, Mahmud bəy Səfikürdski ƏMT-da rəis müavini kimi 1919-cu ildə noyabr ayının 15-dən martın 6-dək ƏMT-nın (əksinqilabla mübarizə təşkilatının) rəis müavini vəzifəsində çalışmışdı. O da bu vəzifədə hümmətçiləri təmsil edirdi. Çünki razılığa əsasən, ƏMT rəhbərliyi iki partiyadan təmsil olunmalı idi. ƏMT-nın rəis müavini vəzifəsi də hümmətçilərin payına düşürdü. Ancaq bütün bunlara baxmayaraq, arxiv sənədlərinin də təsdiq etdiyi kimi Mahmud bəy bu vəzifədə özünü layiqincə apardı, gənc respublikanın təhlükəsizliyinin təmin edilməsində öz bacarığını əsirgəmədi. Xüsusən də erməni casuslarına və denikinçilərə qarşı mübarizədə Mahmud bəy Səfikürdski bütün imkanlarını səfərbər etmişdi. Onu da deyək ki, əldə edilmiş materialların (MTN-nin arxivi, PR-1752 saylı istintaq işi) bir qismində onun bolşeviklərə qarşı da çıxışı qeyd edilir. Buna əlavə olaraq onu da demək olar ki, Nağı bəylə Mahmud bəyin barəsində söylənilən fikrə bir söykənəkdir. 28 aprel işğalından sonra bir qrup hümmətçi Azərbaycan Fövqəladə Komissiyasında işə qəbul edildi. Onlardan biri də Mahmud bəy idi. Bu elə çox uzun çəkmədi. 22 noyabr 1920-ci ildə onun həbs edilməsi barədə 1906 saylı order imzalandı. Bir gün sonra onu Quba şəhərində həbs edib Bakıya göndərdilər. Onu kommunistlərə qarşı çıxış etməkdə günahlandırırdılar. Ziddiyyətli ifadələrin nəticəsində Mahmud bəy Səfikürdski haqqında 21 yanvar 1921-ci ildə qərar çıxırıldı: o, tutduğu vəzifəsində qala bilməz. Ancaq onun «cinayət»ləri sübuta yetmədiyindən həbsdən azad etmişdi. Təqiblər davam edirdi. Belə bir vəziyyətdə Mahmud bəy Səfikürdski Azərbaycanı tərk etmək məcburiyyətində qaldı. Öncə Yuqoslaviyada yaşayıb ticarətlə məşğul oldu. Sonra Türkiyədə yerləşdi. Mahmud bəy 1977-ci ildə vəfat edib.

Mahmud bəyin Əli bəy adlı oğlu, Mələk xanım, Bilqeys xanım və Leyla xanım adlı qızları var.

## Goranboyun Səfikürd kəndi ərazisində 5 min il yaşı olan yeni yaşayış məskəni aşkar edilib

### Yaşayış yerindən çoxlu qədim əşyaları tapılıb



***Goranboyun Səfikürd kəndi ərazisində 5 min il yaşı olan yeni yaşayış məskəni aşkar edilib. «Göl yeri» ərazisində aparılan qazıntı nəticələrinin qədim dövr tarxinin öyrənilməsinə töhvə olduğu bildirilir. Yaşayış yerindən çiy kərpij , qazma şəklində evlər, təsərrüfat quyuları, ojaq yerləri, 3 insan skeleti, saxsı qablar və çoxlu sayda bəzək əşyaları tapılıb. Ərazidə tədqiqat aparan mütəxəsislərin fikrincə qazıntı işlərinin nəticəsi Azərbayjan arxeologiyasında az öyrənilən və mübahisələrə səbəb olan məsələlərə aydınlıq gətirəcək. Yeniliklər əsasən ilk Tunj dövrünə qədərki mərhələni əhatə edir.***

Tapılan kiçik öküz fiquru isə bu dövrdə insanların «toxa» əkinçiliyindən «xış»a keçdiyinə dəlalət edir. Bundan başqa metaldan dəmir ujluqlu kəsiji alətlərin hazırlanmasında istifadə olunan «bitum» məhlulu da aşkarlanıb ki, bu əvvəlki arxeoloci qazıntılar zamanı az miqdarda olduğundan indiyədək onun tərkibi öyrənilməmiş qalıb.

Dövrlərə şahidlik edən bu daş natiqlərin hər parçası tarixin qaranlıq səhiflərini nurlandıran məşəl kimidir. O işıqda isə əcdalarımızın getdiyi yollara yolçuluq etmək insana mənəvi rahatlıq verir.

## Goranboyda 4500 il tarixi olan yaşayış məskəni aşkar edilib

***Goranboyda 4500 il tarixi olan yaşayış məskəni aşkar edilib. Müzəffər Hüseynov: "Hazırda ərazinin hələ ki, 100 kvadratmetri araşdırılır”. Goranboyda 4500 il tarixi olan yaşayış məskəni aşkar edilib. Tarixi abidə rayonun Səfikürd kəndi ərazisində tapılıb. Ekspedisiya qrupunun üzvü, arxeoloq Müzəffər Hüseynovun sözlərinə görə 2 il əvvəl aparılan tədqiqatlar zamanı bu ərazidə içərisində 10-dan çox insanın dəfn olunduğu kurqan aşkar edilmişdi.***

“Sonradan aparılan araşdırmalar nəticəsində isə müəyyənləşib ki, qara arxac adlanan bu sahədə yaşayış məskəni də mövcud olub və yaşayış yeri təqribən 2 hektar ərazini əhatə edib. Qazıntılar nəticəsində tapılan maddi mədəniyyət nümunələri hələlik bu ərazidə yaşayan insanların toxuculuq və dulusçuluqla məşğul olduğuna dəlalət edir”, - deyə o bildirib.

Bundan başqa arxeoloqların ehtimallarına görə tapılan heyvan sümükləri vasitəsilə o dövrün heyvanat aləmi barədə də informasiya əldə etmək mümkün olacaq.

Müzəffər Hüseynov əlavə edib ki, 2 ha ərazidə yaşayan insanların həm yaşayış yerləri, həm də təsərrüfat sahələri var. “Yəni burada onlar həm çörəklər bişirib, həm də, qab-qacaq hazırlayıblar. Hazırda biz onun hələlik 100 kvadratmetrini araşdırırıq”, -deyə o vurğulayıb.

# Analoqu olmayan kurqan

## Abidə tunc dövrünə, b.e.ə. III minilliyə aid edilir

***Son zamanlar Goranboy rayonunun Səfikürd kəndi ətrafında geniş çöl-tədqiqat işləri aparılıb. Bu işlərin nəticəsində isə rayon üçün ilkdəfə olaraq eneolit dövrünə aid yaşayış məskəni aşkar edilib. Həmin yaşayış məskənində aparılan kəşfiyyat xarakterli qazıntı nəticəsindəabidənin e.ə. V minilliyə aid olduğu müəyyən edilib.***

AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun arxeoloqu Müzəffər Hüseynovunsözlərinə görə, burada eyni zamanda çoxlu saxsı məmulatlar da aşkar olunub. Bundan əlavə, kənd

əhəng daşlarından tikilib. Kurqanaltı kamera isəsərdabə tiplidir. Sərdabənin divarlarının hündürlüyü 145 sm-dir. Bu hündürlüyü həm də sərdabənin hündürlüyü kimi vermək olar.

Sərdabənin divarları isə çox yaxşı qalıb. Enli inşa edilmiş divarların şimal tərəfdə eni 1 metr 10 sm, cənub və qərb tərəfdə isə 1 metr 60sm-dir. Sərdabənin içəridən ölçüsü şərq-qərb istiqamətində 3 metr 70 sm, şimal-cənub istiqamətində 3 metr 40 sm-dir. Sərdabəyə giriş isəşərqdəndir. Girişin eni 1 metr 40 sm, giriş dəhlizinin uzunluğu isə 4 metr 30 sm-dir. Giriş dəhlizinin kənarındakı divarlar da ağ

muncuq, 10 ədəd iy başlığı aşkar edilib. İy başlığının 9-ü sümükdən, biriisə daşdan hazırlanıb. Daşdan hazırlanan iy başlığı çox ustalıqla hazırlanıb, üzəri üçbucaq formalı naxışlarla bəzədilib. 10 ədəd iy başlığının birqəbirdə aşkar edilməsi faktı ilk tunc dövrü üçün nadir hadisə hesab edilə bilər. Sərdabədən aşkar olunan skeletlər sağ və sol yanı üstə,yarıbükülü, baş tərəfı divara söykənmiş vəziyyətdə qoyulub.

Torpaq qəbirlər aşkar edilib

Goranboyun Səfikürd kəndində tədqiqatlar aparan Müzəffər Hüseynov sonda onu da bildirdi ki, tədqiqatlar zamanı ilk tunc dövrünə aidkurqanlar-

ətrafinda son tunc-ilk dəmir dövrünə aid ikitorpaq qəbir tapılıb və qazınti nəticəsində qəbirlərdən gil qablar, müxtəlif materiallardan, tuncdan bəzək əşyaları - muncuqlar, qolbaq yə sırğalaraşkar edilib. Ekspedısiyanın əsas uğurlarından biri Səfikurd kəndi yaxınlığında onun cənub-şərq tərəfindən ilk tunc dövrünə, b.e.ə. III minilliyəaid kurqan abidəsinin aşkar edilərək qazılması olub.

Arxeoloq Müzəffər Hüseynov onu da bildirdi ki, kurqanın diametri 16 metr, hündürlüyü 2,8 metrdir. Kurqan hündürlüyü 18-20 metrolan uzunsov-oval formalı təpənin üzərində qurulub. Qazıntı zamanı kurqan örtüyündə son tunc dövrünə aid bir qəbir abidəsi də aşkar edilərəkqazılıb. Kurqan örtüyündən aşkar olmuş sallama qəbir 2x1 metr ölçüdə olub, 110 sm dərinlikdə dəfn edilib.

Qəbirdə müxtəlif forma yə ölçüdə 5 ədəd saxsı qab, əqiqdən hazırlanan 72 ədəd muncuq, 1ədəd tunc iynə, 3 ədəd kəsici alət aşkaredilib. Əsas kurqanaltı oəbir çox maraqlıdır.

